http://iqtisadiforum.blogspot.com/2020/08/abil-bayramov-bldiyylrin-tam-v-mustsna.html

# Bələdiyyələrin tam və müstəsna səlahiyyətlərə ehtiyacı var

Dövlət mülkiyyətində olan bəzi müəssisələrin və bu müəssisələrin həyata keçirdiyi xidmətlərin bələdiyyələrə verilməsi məsələsi son aylarda yenidən aktuallaşıb. Belə ehtimal edilir ki, dövlət, səmərəli fəaliyyət göstərməyən müəssisələrin bir qismini özəlləşdirəcək, bəzilərini isə bələdiyyələrin idarəetməsinə verəcək.

***Bu dəyişikliklərlə bələdiyyələrin səlahiyyətlərinin artırılmasını gözləyə bilərikmi?***

Sfera.az bildirir ki, ekspert Abil Bayramov bələdiyyələrin səlahiyyətlərinin kifayət qədər məhdud olduğunu, sosial və ictimai xidmətlərin böyük hissəsinin yerli icra qurumları tərəfindən həyata keçirildiyini dedi. O bildirdi ki, bir qayda olaraq yerli özünüidarəetmə sistemləri inkişaf edən ölkələrdə yerli sosial və ictimai xidmətlər bələdiyyələrin səlahiyyəti daxilindədir. Azərbaycanda isə həmin səlahiyyətlər bələdiyyələr üçün ümumi qaydada tanınsa da səlahiyyətlərin əhəmiyyətli hissəsini yerli icra qurumları həyata keçirir. Ekspert söylədi ki, qanunvericilikdə bir çox hallarda səlahiyyətlərin üst-üstə düşməsi hallarına rast gəlinir, bir çox hallarda isə yerli ictimai xidmətlərlə bağlı səlahiyyətlərin yerli icra qurumları üçün qanunvericilikdə tanınması halı var. A.Bayramov hesab edir ki, bu baxımdan bələdiyyələrin yerli hakimiyyət qurumları kimi əhaliyə keyfiyyətli ictimai xidmətlər göstərmək imkanları məhdudlaşıb: “Biz dəfələrlə təklif etmişik ki, bələdiyyələrin səlahiyyətləri artırılmalıdır və Yerli Özünüidarəetmə Haqqında Avropa Xartiyasının tələblərinə uyğun olaraq bələdiyyələrə tam və müstəsna səlahiyyətlər verilməlidir. Əgər səlahiyyətlər tam və müstəsna olmursa, o səlahiyyətlərin başqa hakimiyyət qurumları ilə toqquşması baş verir və əhaliyə göstərilən xidmətlərin keyfiyyəti də aşağı düşür.

Səlahiyyətlərin mərhələli şəkildə verilməsi daha məqsədə müvafiqdir. Amma bu prosesə əvvəl-axır başlamaq lazımdır. Bundan əlavə yalnız səlahiyyətlərin verilməsi yetərli deyil. Səlahiyyətlərin verilməsi ilə yanaşı, həmin səlahiyyətlərin həyata keçirilməsini təmin edə biləcək maliyyə mənbələri də verilməlidir. Çünki maliyyə mənbəyi olmadan səlahiyyət veriləndə, həmin səlahiyyətlərin həyata keçirilməsi mümkünsüz olur. Məsələn, hal-hazırda qanunvericliklə məhəllə daxili yollar bələdiyyələrin mülkiyyətinə verilib. Lakin bələdiyyələr həmin yolların təmiri, yenidən qurulması və s. sahəsində səlahiyyətlərini kifayət qədər yerinə yetirə bilmir. Çünki yol infrastrukturu bir qədər çox vəsait tələb edən sahədir. Buna görə də nə qədər onu təmin edəcək maliyyə mənbələri yoxdur, bələdiyyələr ona verilən səlahiyyətləri həyata keçirməkdə çətinlik çəkəcək. Eləcə də digər infrastruktur sahələri ilə bağlı eyni şeyi söyləmək mümkündür. Bələdiyyələrin səlahiyyətləri genişləndiriləcəksə, həmin səlahiyyətləri həyata keçirməyə imkan verən maliyyə təminatı da olmalıdır. Hazırda bələdiyyələrin maliyyə resursları çox məhduddur”.

A.Bayramov ilkin mərhələdə Mənzil İstimar Sahələrinin ("JEK") funksiyalarının və maliyyə mənbələrinin bələdiyyələrə ötürülməsini məqsədəuyğun hesab edir: "Yeni Mənzil Məcəlləsi qəbul ediləndən sonra "JEK"-lərin fəaliyyətinin hüquqi əsasları aradan qalxıb. Qanunvericiliklə bir neçə forma təklif edilir ki, onlardan biri də Mənzil Mülkiyyətçilərinin Müştərək Cəmiyyətləridir. Pilot layihə kimi bəzi ərazilərdə yaradılıb. Bələdiyyələr bu prosesdə iştirak ediblər.

Bələdiyyələrə imkan verilməlidir ki, onlar yerli əhəmiyyətli xidmətlərin təşkilində səlahiyyətli olsun. Təcrübədə müxtəlif nümunələr var. Ya bilavasitə bələdiyyənin özü bu prosesi həyata keçirir, ya da müəyyən özəl qurumlarla müqavilələr əsasında xidmətlərin göstərilməsini təşkil edir. Əsas məsələ səlahiyyətlərin bələdiyyələrə verilməsidir. Sonradan həmin səlahiyyətlərin hansı formada həyata keçirilməsi bələdiyyələrin ixtiyarında olan məsələ olacaq".

Vasif